Support for Improvement in Governance and Management
A joint initiative of the OECD and the EU, principally financed by the EU

SIGMA

**8-ci Xülasə** Yanvar 2011-ci il

**Dövlət satınalmaları**

# Təltif edilmə meyarlarının müəyyən edilməsi

**MÜNDƏRİCAT**


- Ümumi kontekst: Ayrı-seçkiliyin yolverilməzliyi və şəffaflıq
- Ən aşağı qiymət meyarının tətbiqi
- İqtisadi baxımdan ən səmərəli təklifin müəyyən edilməsi üçün istifadə edilən metodlar
- Müqavilənin təltif edilmə meyarları ilə əlaqədar ümumi strategiyanın müəyyən edilməsi: yaddaş siyahısı


EUROPEAN COMMISSION
OECD BETTER POLICIES FOR BETTER LIVES

www.sigmaweb.org
Bu sənəd Avropa İttifaqının maliyyə yardımı ilə hazırlanmışdır. Burada ifadə olunan fikirlər heç vəchlə Avropa İttifaqının rəsmi rəyi kimi qəbul edilə bilməz və İƏİT, yaxud ona üzv dövlətlərin və ya Sigma proqramında iştirak edən benefisiar ölkələrin fikirlərini əks etdirməyə bilər.

Təltif edilmə meyarları satınalan təşkilatın ən yaxşı təklifi seçmək və müqaviləni təltif etmək üçün əsas götürdüyü meyarlardır. Bu meyarlar satınalan təşkilat tərəfindən əvvəlcədən müəyyən edilməli və ədalətli rəqabətə xələl gətirməməlidir.

Direktiv satınalan təşkilat tərəfindən müqavilənin təltif edilməsi üçün tətbiq oluna biləcək meyarları aşağıdakılarla məhdudlaşdırır:

- Ən aşağı qiymət meyarı;
- İqtisadi cəhətdən ən səmərəli təklif (İƏST), bu, qiymətdən başqa meyarların da tətbiq olunması deməkdir.

Direktiv İƏST meyarı istifadə edilən zaman tətbiq edilə biləcək konkret meyarların formalaşdırılması ilə əlaqədar ümumi qaydaları, eləcə də bu meyarların açıqlanması öhdəliklərini müəyyən edir. Avropa İqtisadi Cəmiyyətin qanunvericilik orqanının əsas məqsədi Cəmiyyət daxilində ticarətin ayrı-seçkiliyə yol verən təltif edilmə meyarları ilə məhdudlaşdırılmamasını təmin etməkdir.

Təltif edilmə meyarlarını müəyyən edən zaman satınalan təşkilat ümumi hüquq prinsiplərinə, Müqavilə prinsiplərinə hörmətlə yanaşmalı və aşağıdakıların təmin etməyə çalışmalıdır:

**Bərabər yanaşma və ayrı-seçkiliyin yolverilməzliyi** - müqavilənin təltif edilməsi meyarları ayrı-seçkiliyə yol verməməli və ədaləti rəqabətə xələl gətirməməlidir.

**Şəffaflıq** - müqavilənin təltif edilmə meyarları əvvəlcədən müəyyən edilməli və lazımi qaydada iddiaçılara açıqlanmalıdır. Müqavilənin təltif edilmə meyarlarının müəyyən edilməsi və rəsmi qaydada açıqlanması aşağıdakı nəticələrə xidmət edir:

- iddiaçılar təkliflərini daha məqsədyönlü şəkildə hazırlaya və satınalan təşkilatın bəyan etdiyi prioritetləri təmin etmək üçün əllərindən gələni edə bilərlər;

- təkliflər satınalan təşkilat tərəfindən şəffaf, etibarlı və mümkün qədər obyektiv şəkildə qiymətləndirilir;

- müvafiq maraqlı tərəflər, məsələn, audit orqanları, nəzarət orqanları, digər dövlət orqanları və ya təsərrüfat subyektləri icazə verilməyən, yaxud ayrı-seçkilik yaradan təltif edilmə meyarlarının istifadəsinin qarşısını almaq üçün prosesi izləyə bilərlər.

Aşağı qiymət meyarı və iqtisadi cəhətdən ən səmərəli təklif meyarı arasında seçim etmək əksərən satınalan təşkilatın öz öhdəsinə buraxılır, lakin rəqabət dialoqu proseduru və ya satınalan təşkilatın İƏST meyarının istifadə edilməli olduğu variantları seçdiyi hallar istisna təşkil edilir.

Müqavilə haqqında bildirişin tələb olunduğu satınalama prosedurlarında satınalan təşkilat müqavilə haqqında bildirişdə ən aşağı qiymət meyarını, yoxsa İƏST meyarını tətbiq edəcəyini elan etməlidir.

## Ən aşağı qiymət meyarının tətbiq edilməsi nə deməkdir?

Satınalan təşkilat ən aşağı qiymət meyarının tətbiqini seçdikdə, müqavilə müvafiq tender üçün ən aşağı qiyməti təklif edən iddiaçıya təltif edilir. Qiymət ən uyğun təklifin seçilməsi zamanı nəzərə alınan yeganə amildir. Alınmış təkliflər məqbul, qeyri-məqbul sistemi ilə və müəyyən edilmiş spesifikasiyalara əsasən qiymətləndirilir. Bu seçim

zamanı xərclərin təhlilindən və keyfiyyət amillərinin nəzərə alınmasından söhbət gedə bilməz.

**Ən aşağı qiymət meyarının yaratdığı məhdudiyyətlər:** Sadəlik və sürətlilik kimi üstünlükləri olsa da, ən aşağı qiymət meyarı aşağıdakılar daxil olmaqla müəyyən məhdudiyyətlər yaradır:

- Bu, satınalan təşkilatın keyfiyyət amillərini nəzərə almasına imkan vermir. Bütün iddiaçılar tərəfindən ödənməli olan, spesifikasiyalarda müəyyən edilmiş keyfiyyət amilləri xaricindəki keyfiyyət xüsusiyyətləri qiymətləndirməyə təsir edə bilməz.

- Satınalan təşkilatın yenilikləri və yenilikçi həll yollarını nəzərə almasına icazə vermir. Müəyyən edilmiş spesifikasiyalara cavab verən təklif uyğun hesab edilməyə bilməz.

- İstismar müddətinin uzun olması tələbi irəli sürüldükdə, satınalan təşkilatın istismar müddəti ərzində meydana gələ biləcək xərcləri nəzərə almaq imkanı olmur. Ən aşağı qiymət meyarı seçildiyi halda, yalnız birbaşa alış xərcləri və ya müəyyən edilmiş spesifikasiyalar daxilində ilkin alış qiyməti nəzərə alına bilər.

## İƏST meyarının tətbiq edilməsi nə deməkdir?

İqtisadi cəhətdən ən səmərəli təklif (İƏST) meyarı istifadə edildikdə, satınalan təşkilat qiymədən əlavə keyfiyyət, çatdırılma tarixi, satış sonrası xidmətlər kimi digər amilləri də nəzərə ala bilir. Seçilmiş hər bir meyara satınalan təşkilat tərəfindən nisbi çəki təyin edilir, bu, həmin meyarın malik olduğu nisbi əhəmiyyəti bildirir. İƏST meyarının məqsədi ödənilən vəsaitin ən yaxşı qarşılığını verə biləcək təklifin müəyyən edilməsidir.

**Ödənilən məbləğin qarşılığı:** Pulun tam qarşılığının ödənməsi dedikdə, məsrəflərlə əlaqədar meyarları, eləcə də digər müxtəlif amilləri satınalan təşkilatın tələblərini ödəmək məqsədilə bir araya gətirən optimal kombinasiya nəzərdə tutulur. Bununla belə, müxtəlif meyarların birləşməsindən əmələ gələn bu optimal kombinasiyanı təşkil edən elementlər satınalmadan satınalmaya dəyişir və satınalan təşkilatın tələb etdiyi nəticələrdən asılıdır.

Pulun qarşılığının ödənməsi konsepsiyası bütün malların, işlərin və xidmətlərin eyni olmadığını, keyfiyyət, davamlılıq, uzun müddətlilik, əlçatanlıq və digər satış şərtlərinə görə bir-birlərindən fərqləndiklərini nəzərə alır. Pulun qarşılığının ödənilməsinə nail olmağa çalışmaqla satınalan təşkilat ehtiyaclarına cavab verən xüsusiyyətlərin ən optimal kombinasiyasını əldə etməyə cəhd edir. Buna görə də təklif edilən müxtəlif məhsulların səciyyəvi xərcləri, dayanıqlılığı, uzun müddət istismar edilə bilməsi kimi müxtəlif keyfiyyətlər qiymətlə müqayisədə qiymətləndirilir. Bəzən texniki xidmət xərcləri aşağı olan məhsula görə daha çox vəsaitin sərf edilməsi, texniki xidmət xərcləri yüksək olan məhsula görə daha kiçik məbləğ ödənişindən üstün sayıla bilər.

**İƏST meyarının üstünlükləri:** Ən aşağı qiymət meyarından fərqli olaraq İƏST meyarı xüsusən aşağıdakılar daxil olmaqla bir sıra üstünlüklər təklif edir:

- Bu, satınalan təşkilatlara keyfiyyət amillərini nəzərə almağa imkan verir. İƏST meyarı keyfiyyət satınalan təşkilat üçün vacib olduqda istifadə edilir.

- Bu satınalan təşkilatların yenilikləri və yenilikçi həll yollarını nəzərə almasına imkan verir. Bu xüsusən yeniliklərin, mühüm tədqiqatların və inkişaf fəaliyyətlərinin mənbəyi olan orta və kiçik müəssisələr üçün vacibdir.

- İstismar müddətinin uzun olması tələb olunursa, satınalan təşkilatın təkcə birbaşa alış xərclərini və ya müəyyən edilmiş spesifikasiyalar çərçivəsində ilkin alış qiymətini deyil, həm də istismar müddəti ərzində meydana gələ biləcək xərcləri nəzərə almaq imkanı olur.

## İqtisadi cəhətdən ən səmərəli təklifin müəyyən edilməsi üçün hansı təkliflərdən istifadə edilə bilər?

İqtisadi cəhətdən ən səmərəli təklifin müəyyən edilməsi üçün satınalan təşkilat müxtəlif meyarları nəzərə ala bilər. Direktivə aşağıdakı meyarların daxil olduğu *nümunəvi* siyahı daxildir:

- keyfiyyət
- qiymət
- texniki xüsusiyyətlər
- estetik və funksional xüsusiyyətlər
- ekoloji xüsusiyyətlər
- istismar xərcləri
- gəlirlilik
- satış sonrası xidmətlər və texniki yardım
- çatdırılma tarixi, çatdırılma müddəti və ta tamamlanma müddəti

Siyahı müfəssəl olmadığından, iqtisadi cəhətdən ən səmərəli təklifin, hər bir hal üçün səciyyəvi şərait nəzərə alınmaqla və müəyyən edilmiş konkret hədlər daxilində sərbəst mülahizə əsasında müəyyən edilməsi üçün meyarların təsbit edilməsi satınalan təşkilatın öz öhdəsinə buraxılır.

Təltif edilmə meyarı iki ümumi kateqoriyaya ayrıla bilər: məsrəflərlə əlaqədar olan və məsrəflərlə əlaqədar olmayan.

**Məsrəflərlə əlaqədar meyarlar:** bəzən iqtisadi meyar da adlandırılan məsrəflərlə əlaqədar meyarlar satınalan təşkilata satınalma obyektinin alınması üçün tələb olunan maliyyə xərclərini, eləcə də istismar xərclərini müəyyən etmək imkanı verir.

### İstismar müddətində meydana gələn xərclər

İstismar müddətində meydana gələn xərclər malların, işlərin və ya xidmətlərin istismar müddəti ərzində yaratdığı xərclərdir. Ümumi sözlərlə desək, istismar müddətində meydana gələn xərclərə satınalan təşkilatın aşağıdakılarla əlaqədar qarşılaşdığı bütün xərclər daxildir:

- alış
- istismar müddəti
- istismar müddətinin bitməsi (məsələn, tullantıların atılması)

İstismar müddətində meydana gələn xərclər bir dəfəlik ola və ya təkrarlana bilər. **Birdəfəlik xərclərə** ilkin qiymət, alış və quraşdırma xərcləri, ilkin təlim və ya tullantıların atılması xərcləri kimi yalnız bir dəfə ödənilən xərclər daxildir.

**Təkrarlanan xərclər** satın alınan obyektin istismar müddəti ərzində ödənilən xərcləridir. Bu xərclər istismar müddətinin uzunluğundan asılıdır və adətən vaxt ötdükcə artır. Təkrarlanan xərclərə texniki qulluq xərcləri, təmir, tez tükənən materiallar, ehtiyat hissələri və enerji sərfi daxildir.

**Məsrəflə əlaqədar olmayan meyarlar:** Məsrəflərlə əlaqədar olmayan meyarlar səmərəli iş xüsusiyyətləri ilə bağlı əsas tələbləri və spesifikasiyalara uyğunluğu nəzərdə tutur. Aşağıdakılar məsrəflə əlaqədar olmayan meyarlara aid edilə bilər:

- **keyfiyyət** - satınalma obyektindən tələb olunan keyfiyyət xüsusiyyətləri, məsələn printerin bir dəqiqə ərzində çap etdiyi səhifələrin sayı və ya dayanıqlılığı
- **texniki xüsusiyyətlər** - satınalma obyekti məqsədə cavab verirmi və iş xüsusiyyətləri nə dərəcədə yaxşıdır
- **estetik və funksional xüsusiyyətlər -** satınalma obyekti necə görünür, hansı təəssüratı oyadır və istifadəsi nə dərəcədə asandır
- **çatdırılma tarixi** - sifarişin verilməsindən çatdırılmaya qədər zəmanət verilən müddət və işin müəyyən edilmiş son tarixə qədər çatdırıla bilməsi
- **satış sonrası xidmətlər** - müqavilə imzalandıqdan sonra satınalan təşkilata hansı xidmətlər tələb olunur və təmin edilir

**Submeyar –** Satınalan təşkilat iqtisadi cəhətdən ən səmərəli təklifin müəyyən edilməsi üçün seçilmiş meyarları submeyarlara bölmək qərarına da gələ bilər. Submeyarlar satınalan təşkilat tərəfindən müəyyən meyar çərçivəsində nəzərə alınan konkret amilləri bildirir.

## İqtisadi cəhətdən ən səmərəli təklifin müəyyən edilməsi üçün tətbiq ediləcək meyarların müəyyən edilməsi zamanı satınalan təşkilatın öz mülahizəsi əsasında fəaliyyət azadlığına məhdudiyyət qoyulurmu?

Direktiv iqtisadi cəhətdən ən səmərəli təklifə "satınalan təşkilatın nöqteyi-nəzərindən" səmərəli təklif kimi istinad edir və beləliklə, tətbiq olunacaq meyarların tətbiqində satınalan təşkilatın diskresiya hüququnu önə çəkir. Lakin satınalan təşkilatın fəaliyyət azadlığı hüdudsuz deyil və bəzi məhdudiyyətlərə malikdir:

- Seçilmiş meyarlar sözügedən dövlət sifarişi müqaviləsinin predmeti ilə əlaqəli olmalıdır.

- Seçilmiş meyarlar məqsədi iqtisadi cəhətdən ən səmərəli təklifin müəyyən edilməsinə xidmət etməli və başqa məqsədlər daşımamalıdır.

- Seçilən meyarlar obyektiv olmalı və obyektiv şəkildə ölçülə bilməlidir.

Tətbiq ediləcək meyarların obyektivliyinə zəmanət vermək və satınalan təşkilatın məhdudiyyətsiz seçim azadlığının qarşısını almaq üçün bu meyarlar dəqiq və mümkün qədər ölçülə bilən olmalıdır. İddiaçılar öz təkliflərini qiymətləndirmənin necə aparılacağını nəzərə almaqla hazırlaya bilməlidirlər.

## İqtisadi cəhətdən ən səmərəli təklif meyarı və müqavilə spesifikasiyaları: bəzi mühüm amillərin nəzərə alınması

Təcrübədə satınalan təşkilatın iqtisadi cəhətdən ən səmərəli təklifi (İƏST) müəyyən etmək üçün tətbiq edə biləcəyi meyarlar elə seçilməlidir ki, müqavilə spesifikasiyalarına uyğun gəlsin. Qiymətləndirilməli olan bütün spesifikasiyaların əlaqədar meyarları olmalıdır.

Spesifikasiyaların və İƏST-nin müəyyən edilməsi meyarlarının hazırlanması paralel şəkildə aparılır. Müqavilə spesifikasiyaları meyarlar nəzərə alınmadan hazırlana bilməz və əksinə tətbiq edilə biləcək meyarlar müqavilə spesifikasiyaları nəzərə alınmadan müəyyən edilə bilməz.

İqtisadi cəhətdən ən səmərəli təklif meyarından istifadə edildikdə, satınalan təşkilat konkret olaraq aşağıda göstərilən qaydalardan birini izləmək qərarına gələ bilər:

- Bütün təkliflərin cavab verməli olduğu minimum məcburi spesifikasiyaların müəyyən edilməsi, təkliflərin məqbul və ya qeyri-məqbul sistemi ilə qiymətləndirilməsi, daha sonra isə məqbul hesab olunmuş təkliflərə balların verilməsi. Ballar hər bir təklifin minimum spesifikasiyaları nə dərəcədə ötdüyünü göstərəcək.

- Məcburi spesifikasiyalara əlavə olaraq və ya alternativ kimi, minimum "hədd"in tətbiqini nəzərdə tutmayan və satınalan təşkilatın tələbləri ilə uyğunluq səviyyəsi əsasında qiymətləndirilməli olan spesifikasiyaların müəyyən edilməsi. Bu halda uyğunluq səviyyəsində bir qədər fərqliliklərin olması məqbul hesab edilir

## İqtisadi baxımdan ən səmərəli təklifin müəyyən edilməsi üçün hansı metodlardan istifadə edilə bilər?

Seçilmiş meyarların tətbiq edilmə metodları və ya metodologiyaları satınalan təşkilatın iqtisadi cəhətdən ən səmərəli təklifi müəyyən etmək üçün istifadə edə biləcəyi "sistemlər"dir.

- **Nisbi çəkilərin müəyyən edilməsi:** Direktiv satınalan təşkilatdan iqtisadi cəhətdən ən səmərəli təklifin müəyyən edilməsi üçün seçdiyi hər bir meyar üçün nisbi çəki təyin etməyi tələb edir.

  Nisbi çəki sistemi vasitəsi ilə satınalan təşkilat iddiaçılara seçilmiş hər bir meyara verdiyi nisbi əhəmiyyət haqqında məlumat verir, bu həm də iddiaçıların daha məqsədyönlü təkliflər hazırlamasına icazə verir. Nisbi çəkinin müəyyən edilməsi sistemi vasitəsi ilə satınalan təşkilat həm də öz müstəqil fəaliyyət hüdudlarını formalaşdırır, təkliflərin qiymətləndirilməsi prosesində özbaşına qərarların qəbul edilməsi imkanlarını məhdudlaşdırır.

  Satınalan təşkilat istifadə edilən meyarların nisbi çəkilərini "məqbul hesab edilən" maksimum fərq diapazona riayət etməklə müəyyən edə bilər. Fərq məqsədə müvafiq olmalı, yəni şəffaflıq prinsipinin pozulması ilə nəticələnəcək

qədər böyük (məsələn 10%-lə 90% arasında) olmamalı, potensial iddiaçıların satınalan təşkilatın hər bir meyara verdiyi faktiki nisbi əhəmiyyəti başa düşməsi üçün əhəmiyyətli göstərici rolunu oynamamalıdır.

İqtisadi cəhətdən ən səmərəli təklifin seçilməsi üçün tətbiq ediləcək müxtəlif meyarların nisbi çəkisinin müəyyən edilməsinə ehtiyatla yanaşılmalıdır. Nisbi çəkilərin düzgün müəyyən edilməməsi təkliflərin qiymələtdirilməsi zamanı problemlər yarada və ödənilən vəsaitin ən yaxşı qarşılığını verə biləcək təklifin seçilməməsinə gətirib çıxara bilər.

- **Azalan əhəmiyyət sırası:** İsbatı mümkün olan səbəblərə görə nisbi çəkinin müəyyən edilməsi mümkün olmadıqda, satın alan təşkilat tətbiq edilən meyarları azalan əhəmiyyət sırası ilə göstərməlidir. Nisbi çəkilərin müəyyən edilə bilməməsinin səbəblərindən biri müqavilənin mürəkkəbliyi ola bilər.

**İqtisadi cəhətdən ən səmərəli təklifin müəyyən edilməsi üçün tətbiq edilən meyarlar və onların tətbiq edilmə metodları ilə əlaqədar açıqlama öhdəlikləri:** Satınalan təşkilat müqavilə haqqında bildirişdə, müqavilə sənədlərində və rəqabət dialoqunun keçirilməsi halında izahedici sənədlərdə aşağıdakıları bəyan etməlidir:

- iqtisadi cəhətdən ən səmərəli təklifi formalaşdıran meyarlar **və**

- onların nisbi çəkiləri, yaxud (satınalan təşkilatın mülahizəsinə əsasın nisbi çəkilərin müəyyən edilməsi mümkün olmadıqda) azalan əhəmiyyət sırası.

Açıq-aydın bəyan edilmiş bu iki açıqlama öhdəliyi istisna olmaqla, Direktiv satınalan təşkilatdan qiymətləndirmə metodologiyasını əvvəlcədən ətraflı şəkildə formalaşdırmasını tələb etmir. Qiymətləndirmə metodologiyasını ətraflı şəkildə formalaşdırdığı halda isə, satınalan təşkilat bu metodologiyanı iddiaçılara tam açıqlanmalıdır.

Tender sənədlərinə qiymətləndirmə prosesinin necə keçiriləcəyi, hansı amillərin nəzərə alınacağı (nisbi çəkiləri göstərilməklə), eləcə də iqtisadi cəhətdən ən səmərəli təklifin müəyyən edilməsi üçün tətbiq ediləcək metodologiyalar haqqında dəqiq məlumatlar daxil edilməli və beləliklə, şəffaflıq təmin edilməlidir.

Bu, iddiaçılara daha məqsədyönlü təkliflər hazırlamağa imkan verməklə yanaşı, qiymətləndirmə daxil olmaqla, bütövlükdə tender prosesinin daha şəffaf keçirilməsinə gətirib çıxaracaq. Bu həm də müvafiq maraqlı tərəflərin (xüsusən iddiaçılara, audit orqanlarına və digər dövlət təşkilatlarına) qiymətləndirmə meyarlarının və metodologiyalarının ayrı-seçkiliyə yol veriləcək şəkildə hazırlandığı və/və ya tətbiq edildiyi halların müəyyən edilməsi məqsədilə tender prosesini izləməsinə imkan verəcək.

**Xəbərdarlıq: elan edilmiş təltif edilmə meyarlarının tender prosesində dəyişdirilməsi:** Elan edilmiş təltif edilmə meyarları (o cümlədən nisbi çəkilər, tətbiq olunan hər hansı submeyar və elan edilmiş ətraflı qiymətləndirmə metodologiyası) təkliflərin qiymətləndirilməsi prosesi ərzində heç vəchlə dəyişdirilə və ya ləğv edilə bilməz. Bu mərhələdə müəyyən edilmiş meyarlar dəyişdirilmədən tətbiq edilməlidir.

## • Müqavilənin təltif edilmə meyarları ilə əlaqədar ümumi strategiyanın müəyyən edilməsi: yoxlanmalı olan əsas məqamların siyahısı

• Müqavilənin təltif edilmə meyarları ilə əlaqədar ümumi strategiya tender başlamazdan əvvəl müəyyən edilməlidir Aşağıdakı siyahı satınalan təşkilatın ümumi strategiyasını müəyyən edən zaman nəzərə almaq istəyəcəyi əsas məqamlardan bəzilərini əks etdirir:

- Hansı meyarın tətbiq ediləcəyinin seçilməsi: ən aşağı qiymət meyarı və ya İƏST meyarı (seçim imkanı olduqda).

- İƏST meyarı seçildiyi halda:

  ▪ Tətbiq olunacaq hər bir meyar və onların nisbi çəkisi müəyyən edilməlidir (yaxud isbat edilə bilən səbəblərdən nisbi çəkilərin müəyyən edilməsi mümkün olmadıqda, azalan əhəmiyyət sırası).

  ▪ Meyarların submeyarlara bölünməsi qərarlaşdırıldıqda, bu submeyarlar müəyyən edilməli və hər bir meyarın nisbi çəkisi çərçivəsində submeyarların nisbi çəkiləri təsbit edilməlidir.

  ▪ Daha ətraflı qiymətləndirmə metrologiyasının tətbiqi qərarlaşdırıldığı halda, həmin metodologiya aydın müəyyən edilməlidir.

- Qüvvədə olan müvafiq qanunvericiliyə əsasən aşağıdakı elementlərin nə vaxt, necə, harada açıqlanacağının müəyyən edilməsi:

  - Konkret haldan asılı olaraq, aşağı qiymət meyarı və ya İƏST meyarından istifadə;

  - İƏST meyarı seçildiyi halda:

    ▪ tətbiq olunacaq hər bir meyar və onun nisbi çəkisi (yaxud isbat edilə bilən səbəblərdən nisbi çəkilərin müəyyən edilməsi mümkün olmadıqda, azalan əhəmiyyət sırası).
    ▪ tətbiq olunacaq hər bir meyarın bölündüyü submeyarlar və onların hər bir meyar üçün müəyyən edilən çəki daxilindəki nisbi çəkisi;
    ▪ hazırlanmış qiymətləndirmə metodologiyası.

## Əlavə ədəbiyyat siyahısı:

SIGMA Dövlət Satınalmaları haqqında Təlimat Kitabçası